# Bahar həm də hünər fəslidir

**Azərbaycan xalqı hələ qədim zamanlardan Novruz bayramını günlərlə və böyük təmtəraqla qeyd edib. Keçirilən el şənliklərini, xalq oyunlarını uşaqdan-böyüyədək hər kəs maraqla, səbirsizliklə gözləyib. Hamı Novruza xüsusi hazırlaşıb. Novruzda və bu bayrama qədər qeyd olunan Su, Od, Yel və Torpaq çərşənbələrində keçirilən oyunlar insanların ovqatını daha da yüksəldib.**







Novruz bayramında keçirilən el şənliklərində, meydanlarda indiyəcən kütləvi oyunlar, rəqslər, yallılar oynanılır, bayram əhvallı mahnılar oxunur. Aşıqların deyişməsi bayrama şən ovqat qatır. Kəndirbazlar xüsusi tamaşalar göstərirlər. Qədim vaxtlardan Novruz bayramında təşkil edilən bir çox oyun - atçapma, güləşmə və digər yarışlar həm də hünər, güc nümayişi meydanı olub.

## Dirədöymə

Bu oyun ölkəmizdə əsasən Novruz və digər bayramlarda, el şənliklərində oynanılır. Qədim oyun növü olan, gənclər və uşaqlar arasında geniş yayılan Dirədöymə Azərbaycanın ayrı-ayrı bölgələrində müxtəlif adlarla məşhurdur. Bu oyunun Muğan bölgəsində Cızıqdançıxma, Naxçıvanda Cızıq tutması, Bakıda Qayışçapdı, Göyçayda Turaoyunu və başqa adları məlumdur.

Qaydaya əsasən, uşaqlar iki dəstəyə ayrılır. Bir dairəvi cizgi çəkilir və qürrə atırlar. Qürrə hansı dəstəyə düşsə, həmin dəstə mərəyə, yəni dairəyə girir. Oyunda iştirak edən uşaqların hərəsi ayağının altına bir toqqa qoyur, dairədən kənarda qalanlar isə onu götürmək istəyirlər. Dairənin içərisində olanlar onları ayaqla vurmalı, toqqaları götürməyə imkan verməməlidirlər. Əgər dairədəkilər onlardan birini ayaqla vursa, o zaman dairədəki uşaqlar kənara çıxır. Bu dəfə kənardakılar dairəyə girirlər. Dairədəkilər ayaqlarından biri cızıqdan çıxmamaq şərti ilə çöldəkilərdən birini digər ayağı ilə vurana qədər çöldəkilər içəridəkiləri toqqa ilə döyürlər.

Oyunun qaydasına görə, kənardakı oyunçu içəridəkilərdən birini əli ilə tutub dairədən çıxara bilsə, onu bir nəfərə həvalə edir. Özü isə saxlanılan oyunçunun sahibsiz qalmış toqqasını götürməyə çalışır. Həmin vaxt dairənin içərisindəkilər öz toqqaları ilə bərabər, çöldə saxlanılan yoldaşlarının toqqasını da qorumalıdırlar. Bunun əksi də ola bilər. Dairənin içərisindəkilər çöldəkilərdən birini fəndlə tutub dairəyə salarlar. Onda dəstələr yerlərini dəyişməli olurlar. Əgər dairədən kənardakı uşaqlardan biri toqqanı ələ keçirə bilsə, dairənin içərisində olan uşaqları toqqa ilə vurur, ayaqları altındakı toqqaları kənara çıxarıb götürməyə cəhd göstərir. Bütün toqqaları ələ keçirən dəstə qələbə qazanır.

## Papaq, Güc sınağı, Sürpapaq, Piyalə və ox...

Qədimlərdən Novruz bayramında ən çox keçirilən oyunlar arasında Papaq, Güc sınağı, Sürpapaq, Piyalə və ox da olub. Bu oyunların hər biri olduqca maraqla qarşılanır. Hərəsinin özünəməxsus qaydaları və şərtləri var. Papaq oyununda iştirakçı müəyyən edilmiş vaxt ərzində öz papağını başında saxlamağa çalışmalıdır. O, eyni zamanda rəqib komandadan iki papaq götürməlidir.

Güc sınağı oyununda atlı çaparaq qabaq və arxa ayaqları bağlanmış qoyun və ya keçini yerdən götürməli, yəhərə qaldırmalıdır.

Sürpapaq oyununda top-papaq uğrunda oyunçular arasında mübarizə gedir. Oyunun axırında onu qapı dairəsindən keçirirlər. Qaydaya görə, oyunun davam etdiyi müddətdə iştirakçılar cəmi üç dəfə atdan düşə bilərlər. Sürpapaq oyununu müəyyən qədər müasir basketbola da bənzədirlər.

Piyalə və ox oyunu atüstü idman növlərindən biridir. Atı çaparaq xüsusi dirəyin üzərindəki piyaləni oxla vurmaq bu oyunda qarşıya qoyulan əsas məqsəddir. Oyunun iştirakçılarından əsas tələb sərvaxt olmaları, dəqiqlik göstərmələri və cəld tərpənmələridir. Eyni zamanda atın üstündə sürətlə hərəkət edərkən piyaləni dəqiq nişan almaq üçün sərrastlıq gərəkdir. Piyalə və ox oyunu bir neçə variantda oynanılır.

Ümumiyyətlə, Novruz bayramında oynanılan oyunların əksəriyyətinin müxtəlif variantları yaranıb və ölkəmizin ayrı-ayrı bölgələrində böyük həvəslə, bəzən başqa-başqa adlarla keçirilib. Bu oyunlar hər zaman iştirakçılar qədər onlara tamaşa etməyə gələnlərin də marağına səbəb olub. Odur ki, adətən Novruz və digər bayramlarda təşkil olunmuş müxtəlif yarışlara, bir-birindən maraqlı, diqqətçəkən oyunlara baxmağa insanlar kütləvi şəkildə gəlirlər. Onlar yarışlar zamanı oyunçuları alqışları ilə həvəsləndirir və özləri də onlar qədər həyəcan keçirirlər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 19 mart (№ 60).- S.15